**Respublika.** - 2024.- 24 dekabr. - № 284. - S. 13.

# Azərbaycan multikulturalizm və tolerantlıq mərkəzinə çevrilib

**Aygün İbrahimova**

**Bakıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə "Dini maarifləndirmənin aktual məsələləri: ənənə, təcrübə və perspektivlər" mövzusunda Azərbaycan Din Xadimlərinin Forumu keçirilib. Forumda dövlət qurumlarının rəsmi şəxsləri, ilahiyyatçı alim və mütəxəssislər, eləcə də respublikamızın müxtəlif regionlarından gələn fərqli konfessiyalara mənsub olan din xadimləri iştirak ediblər**.

Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Prezident İlham Əliyevin Forumun iştirakçılarına müraciətini oxuyub. Azərbaycan Respublikası ərazisindəki dini ibadət yerləri, ziyarətgahlar, qəbiristanlıqlar, ixtisaslaşdırılmış satış məntəqələri, ölkədə fəaliyyət göstərən din xadimləri haqqında informasiya bazasının sistemləşdirilmiş formada toplandığı vahid elektron xidmətlər portalı olan AMİN (Azerbaijan Multicultural Information Network) layihəsinin videotəqdimatı keçirilib.

Vurğulanıb ki, Forum dini təhdidlər haqqında cəmiyyətin məlumatlandırılması, dini maarifləndirmə prosesində din xadimlərinin rolunun artırılması, eyni zamanda dini icmaların və din xadimlərinin fəaliyyəti, qarşılaşdıqları çətinliklər barədə rəy və təkliflərin öyrənilməsi məqsədi daşıyır.

Tədbir çərçivəsində "Qərbi Azərbaycan: xəritələr, eksponatlar, abidələr, deportasiya" mövzusuna həsr olunan fotosərgi iştirakçıların böyük marağına səbəb olub.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov Forumda çıxışı zamanı bildirib ki, dövlətimizi güclü edən əsas amillərdən biri, multikultural ənənələrimizlə yanaşı, milli-mənəvi dəyərlərimizin qorunmasıdır. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, müstəqil Azərbaycan dövləti milli-mənəvi dəyərlər üzərində qurulub. Cəmiyyətimizin əsasını təşkil edən bu sütunun sarsılmazlığını daimi etmək bizim əlimizdədir, düzgün seçimlərimizdən, fəaliyyətimizdən, davranışlarımızdan asılıdır. "İşğaldan azad olunmuş ərazilərimizə həyat yenidən qayıdır, dini abidələrimiz tarixi simasına qovuşur. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən Qarabağ və Şərqi Zəngəzurda tarixi və mədəniyyət abidələrinin bərpası işləri uğurla həyata keçirilir. Ağdam Cümə məscidi, Zəngilan məscidi, Yuxarı Gövhərağa, Aşağı Gövhərağa, Mamayı, Təzə məhəllə, Saatlı məscidləri bərpadan sonra istifadəyə verilib. Bir neçə şəhər və rayonda məscidlərin tikinti və bərpası, kilsələrin restavrasiyası davam etdirilir.

Bu mürəkkəb tarixi dövrdə din amili bəzən məqsədli şəkildə cəmiyyətləri parçalamaq üçün istifadə edilir. Etiqad anlayışının ictimai təfəkkürə təsir göstərən siyasi texnologiya vasitəsi kimi istifadə edilməsi cəhdləri dinin sosial və mədəni məzmununu təhrif edir. Onun birləşdirici funksiyası kütləvi şübhə yaratmağa yönəlir. Əsas hədəf belə yanlış təqdimatların yaratdığı təhdidlərə Azərbaycanın meydan olmasına imkan verməməkdir. Güclü dövlət həm də belə ehtimalları vaxtında aşkara çıxarır, proqnozlaşdırır, zəruri önləyici tədbirlər görür.

Azad olunmuş torpaqlardakı yeni məscidlərdə fəaliyyətə başlayan din xadimlərinin sayının artdığını bildirən Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə dini maarifləndirmə işində Azərbaycan İlahiyyat İnstitutunun fəaliyyətini təqdirəlayiq adlandırıb: "Dövlət əhəmiyyətli bayramlar və günlər məscidlərdə moizələrdə yüksək səviyyədə təşviq olunur. Aşura mərasimlərində təşkil etdiyimiz qanvermə aksiyaları ictimaiyyət tərəfindən yüksək təqdir edilir. Məhərrəmlik tədbirlərində və Ramazan ayında məzhəbindən asılı olmayaraq vəhdət halında iştirakımız milli-mənəvi vəhdətimizin təzahürü, dövlətçiliyimizə xidmət edən mühüm amildir. Təsadüfi deyil ki, ölkəmiz dünyada dinlərarası və məzhəblərarası anlaşmanın nadir nümunəsinə malik dövlət kimi tanınır və təqdir edilir. İllər əvvəl Azərbaycanın milli xüsusiyyət və tarixi ənənələri ehtiva edən geyim forması işlənib, hazırlanıb, tətbiq edilib. Vahid ruhani formasının qəbulunda məqsəd hər bir uniforma daşıyan peşə sahibləri kimi din xadimlərinin də cəmiyyət içərisində şəxsi məsuliyyətinin artırılması və ictimai nüfuzunun təmin edilməsidir. Təəssüflər olsun ki, bəzi din xadimlərinin bu qaydaya riayət etməməsi, xarici görünüşlərinə laqeyd yanaşması, vahid geyim formasına əməl etməməsi cəmiyyət tərəfindən birmənalı qarşılanmır.

Dünyanın gərgin siyasi mənzərəsi fonunda Azərbaycanda, şükürlər olsun ki, ictimai-siyasi sabitlik hökm sürür. Bu, Prezidentin müdrik daxili və uzaqgörən xarici siyasətinin bəhrəsidir. Dini-mənəvi sahədə uğurlarımız dövlətimizin dünyaya örnək multikultural siyasi xətti, dinlərarası əməkdaşlıq, məzhəblərarası anlaşma mühiti ilə bağlıdır. Din xadimlərinin ən mühüm vasitəsi sözdür, moizədir, xütbədir. "Uca Allahın

buyurduqlarını, Vətən məhəbbətini ali dəyərlər işığında insanlara çatdırmaq, dövlətimizin qazandığı Böyük Zəfərin dərin anlamını, görülən genişmiqyaslı işlərin mahiyyətini açıqlamaq mühüm vəzifəmizdir".

Milli Məclis sədrinin birinci müavini Əli Əhmədov isə ölkəmizi tolerantlığın mərkəzi adlandırıb. Onun sözlərinə görə, din qüdrətli amildir. Bu qüdrətdən düzgün istifadə edilməlidir.

"Azərbaycanda sovet hökuməti illərində ateizm təbliğ olunurdu. Lakin ölkəmiz müstəqil olduqdan sonra cəmiyyətimizdə dini baxışlara münasibət dəyişdi", - deyə o bildirib.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov deyib ki, son dövrlər ərzində qabaqcıl texnologiyaların inkişafı nəticəsində sosial şəbəkələrdə yerləşdirilən kontent tərbiyəvi xarakter daşımır. Uşaqların ziyanlı istiqamətlərə yönəldilməsi müşahidə olunur. Ölkədə iki milyona yaxın təhsilalan və təhsilverənin olduğunu deyən nazir müavini vurğulayıb ki, dini maarifləndirmədə təhsilin mühüm əhəmiyyəti var. Ölkəmizdə müxtəlif dinlərə hörmət edilir. Təhsil proqramlarında daha çox humanizmə yer verilir. "Həyat bilgisi", "Ümumi tarix" fənlərində bu mövzulara yer ayrılır, ali məktəblərdə multikulturalizm mövzusu önəm kəsb edir".

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova qeyd edib ki, radikal dini təsirlərin qarşısını almaq üçün cəmiyyətin müxtəlif təbəqələri, xüsusilə də uşaqlar və gənclər arasında düzgün dini savadlılığın artırılması diqqətdə saxlanılmalı, aidiyyəti dövlət orqanları maarifləndirici tədbirlərə üstünlük verməlidirlər. Dini maarifləndirmə qadınların təhsili və iqtisadi gücləndirilməsi imkanlarının artırılmasında da istifadə edilə bilər.

Ölkəmizdə müxtəlif dinlər və konfessiyalara məxsus xalqlar, etnik qruplar daim sülh şəraitində yaşayıblar. Bu isə öz növbəsində, bizim malik olduğumuz və haqlı olaraq hər zaman qürur duyduğumuz multikulturalizm və tolerantlıq dəyərlərinin əsasını təşkil edib.

Bahar Muradova vurğulayıb ki, Azərbaycan ailə modeli də milli identikliyin və dini dəyərlərin üzərində qurulub. Bu dəyərlərin düzgün təbliği isə ailə institutunu kənar təsirlərdən qoruyur. Odur ki, dini maarifləndirmə işi yalnız dini icmalar və ibadət ocaqları ilə məhdudlaşmayaraq müvafiq dövlət orqanlarının da fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri müavini Aynur Sofiyevanın moderatorlugu ilə baş tutan "Qadın hüquqlarının hayata keçirilməsində din amilinin rolu" mövzusunda paneldə Milli Məclisin Ailə, Qadın və Uşaq Məsələləri Komitəsinin sədri Hicran Hüseynova, Gənclər və idman nazirinin müavini İndira Hacıyeva, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva, Meditasiya Şurası İdarə heyətinin sədri Nadir Adilov məruzələrlə çıxış ediblər.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənovun moderator olduğu "Azərbaycan multikulturalizmi: təcrübə, ənənə və müasir çağırışlar" mövzusunda paneldə isə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, kulturoloq Fuad Məmmədov, Bakı şəhəri Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev, Azərbaycanda Katolik Kilsəsinin Apostol prefekti, yepiskop Vladimir Fekete, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının rəhbəri Yepiskop Aleksiy (Smirnov) çıxış ediblər.